AZƏRBAYCAN www.azerbaijan-news.az

# "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 58; 2010, № 3, maddə 178, № 4, maddə 276; 2011, № 12, maddə 1104; 2013, № 11, maddə 1274; 2014, № 2, maddə 81, № 10, maddə 1159, № 11, maddə 1361; 2015, № 11, maddə 1294) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"1.0.5. maliyyə monitorinqi orqanı - müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum;".

2. 4.0.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"4.0.3. investisiya şirkətləri;".

3. 4.0.4-cü maddədə "kredit təşkilatları" sözləri "hüquqi şəxslər" sözləri ilə əvəz edilsin.

4. 6.1.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"6.1.1. kredit təşkilatları, lizinq xidmətləri göstərən hüquqi şəxslər, investisiya şirkətləri, investisiya fondları, sığortaçı, təkrarsığortaçı və sığorta vasitəçiləri, pul vəsaitlərinin köçürülməsi ilə məşğul olan poçt xidməti göstərən müəssisələr, lotereya təşkilatçısı, lombardlar və daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və ya hüquqi şəxslər üçün - maliyyə monitorinqi orqanı;".

5. 6.1.2, 6.1.4 və 6.2-ci maddələr ləğv edilsin.

6. 6.1.3-cü maddədən "sığortaçı, təkrarsığortaçı və sığorta vasitəçiləri," sözləri çıxarılsın.

7. 17.1-ci maddədə "dövlət orqanını" sözləri "qurumu" sözü ilə əvəz edilsin.

8. 17.7-ci maddədə "Əsasnamə" sözü "Nizamnamə" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2016-cı il*